# Türk birliyi və Türksoy

İlk dəfə Türkiyə Cümhuriyyəti hökumətinin təşəbbüsü və ev sahibliyi ilə 1992-ci ildə Ankarada türkdilli dövlətlərin başçılarının görüşü keçirildi.

Bir müddət "Türk zirvəsi" adlandırılan bu tədbirlər, sonralar "Türk Cümhuriyyətləri dövlət başçılarının zirvəsi", 5-ci zirvədən sonra isə "Türkdilli dövlətlərin dövlət başçılarının zirvəsi" kimi qeyd edilməyə başladı.

Türk dövlətləri arasında elm, təhsil və mədəniyyət sahələrindəki əməkdaşlığın inkişafına təkan verən amillər içərisində Türk dövlət və topluluqları dostluq, qardaşlıq və əməkdaşlıq qurultayları xususi qeyd edilməlidir. Belə mühüm təşkilatlardan biri də TÜRKSOY təşkilatıdır.

TÜRKSOY təşkilatının əsası 1992-ci ilin iyununda altı türk dövlətinin mədəniyyət nazirlərinin İstanbulda keçirilən toplantısında qoyulmusdur. Türk dövlətlərinin mədəniyyət nazirlərinin Daimi Şurası adlanan bu təşkilata 1992-ci ilin dekabrında Bakıda keçirilən toplantıda TÜRKSOY adı verilmisdir. Tam rəsmi olaraq TÜRKSOY-un yaradılması və fəaliyyət prinsipləri haqqında Müqavilə həmin ölkələrin mədəniyyət nazirləri tərəfindən 1993-cü il iyulun 12-də Qazaxıstan Respublikasının keçmiş paytaxtı Almatı şəhərində imzalandı. Təşkilatın Nizamnaməsinə görə, o, türkdilli dövlətlərin mədəniyyət nazirlərinin Daimi Şurasının qərarlarına əsasən fəaliyyət göstərir. 1993-cü il iyulun 12-də Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə təmsilçiləri səkkiz maddədən ibarət "TÜRKSOY-un strukturu və fəaliyyət prinsipləri haqqında müqavilə"ni imzaladılar.

Sonralar TÜRKSOY haqqında Müqaviləyə müşahidəçi ölkələr simasında Başqırdıstan, Tatarıstan respublikaları, Şimali Kipr Türk Respublikası, Xakasiya, Tuva, Çuvaşiya və Qaqauz Yeri respublikaları da qoşuldular. Beləliklə, hazırda TÜRKSOY-a 6 üzv və 7 müşahidəçi ölkə daxildir.

Təşkilatın məqsədi türk xalqları və ölkələri arasında mədəni əlaqələri genişləndirmək, xalqların mədəniyyət və incəsənətini qorumaq, dirçəltmək və inkişaf etdirmək idi, təhsil qurumları arasındakı əlaqələrə xüsusi diqqət yetirildi.

Ulu öndər Heydər Əliyev türkdilli xalqların öz milli tarixlərini, doğma dillərini, ədəbiyyatlarını, mədəniyyət və incəsənətini, adət-ənənələrini qorumağı və onları zənginləşdirməyi həmişə dəstəkləmişdir. Bu baxımdan ümummilli lider Heydər Əliyev türkdilli ölkələrin mədəni əlaqələrini həyata keçirən TÜRKSOY təşkilatının fəaliyyətinin genişlənməsinə və Azərbaycanın bu təşkilatın işində fəallıq göstərməsinə həmişə xüsusi diqqət yetirmişdir. Çox qısa bir müddət ərzində Azərbaycan Respublikası mədəniyyət sahəsində YUNESKO, Avropa Şurası, İSESKO, TÜRKSOY və başqa beynəlxalq qurum və təşkilatlarla sıx əlaqələr qura bildi. Bu sahədə H.Əliyev Fondunun davamlı və səmərəli fəaliyəti danılmazdır.

TÜRKSOY bəşər sivilizasiyası xəzinəsinə Dədə Qorqud, Manas, Nizami, Füzuli, Yəsəvi, Mahmud Qaşqarlı, Yusif Balasaqunlu, Uluqbəy, Yunis Əmrə, Nəvai, Məxtumqulu, Abay kimi nadir incilər vermiş türk xalqlarının mədəni layihələrin gerçəkləşdirilməsində faydalı işlər görmüşdür. TÜRKSOY-un mədəni yönümlü digər beynəlxalq təşkilatlarla, xüsusilə YUNESKO ilə qurduğu əməkdaşlıq təqdirə layiqdir.

Siyasi əlaqələrin inkişafı ilə bərabər mədəni əlaqələrin genişləndirilməsi sahəsində də böyük işlər görüldü. Bu cür əlaqələrin yaranması və inkişafında türk dünyasının mədəni inteqrasiyasının genişlənməsində ümumtürk mədəni birliyi olan TÜRKSOY-un rolu böyükdür.

TÜRKSOY-un üzv ölkələri onun fəaliyyətinin həyata keçirilməsində bərabər hüquqlara malikdirlər. Təşkilatın qərarları ölkələrdə növbə ilə keçirilən mədəniyyət nazirlərinin daimi şurasının toplantısında təsdiq olunur. Toplantılararası müddətdə təşkilata nazirlər sırasından seçilmiş Baş direktor rəhbərlik edir. Baş direktorun aparatında işçi qrupundan əlavə hər ölkədən bir nümayəndə fəaliyyət göstərir. TÜRKSOY-un Baş direktorluğu Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhərində yerləşir, *rəsmi dili* türk dilidir.

Ümumtürk həmrəyliyi və birliyinin formalasmasında türk dövlət və topluluqlarının ənənəvi (illik) "Dostluq, qardaslıq və işbirliyi" qurultaylarının çox böyük rolu vardır. Bu qurultayda ümumtürk birliyinin tarixi zərurət olması və türk dünyasındakı inteqrasiyanın məqsədləri, istiqamətləri, vasitələri, üsulları müzakirə edildi.Ümumilikdə bu qurultaylar "Ümumtürk Evi"nin qurulması işinə özlərinin böyük töhvələrini vermislər. 1999-cu ilin iyulunda Türkiyədə keçirilən qurultayda türk dünyasında daxili inteqrasiya ilə bağlı aşağıdakı təkliflər olundu:

1. Mənəvi bağların daha da möhkəmləndirilməsi üçün ortaq dil, əlifba, televiziya və radio, Elmlər Akademiyasının yaradılması, ümumtürk YUNESKO-sunun təşkili.
2. Avropa ittifaqına bənzər ortaq türk bazarının yaradılması.
3. Avropa Parlamentinə oxşar ümumtürk Məclisinin qurulması.

2007-ci ilin noyabrında Bakıda keçirilmiş növbəti qurultay daha əlamətdar oldu. Bu, Türkiyədən kənarda keçirilən ilk qurultay idi. 30 ölkədən 800-ə yaxın nümayəndənin qatıldıgı qurultayda tanınmış dövlət adamları istirak edirdilər. Bu qurultayın keçirilməsində məqsəd türk dövlət və topluluqları arasında dostluq, qardaslıq və əməkdaşlıq əlaqələrini inkişaf etdirmək, informasiya mübadiləsini və bir-birilərini yaxından tanımalarını təmin etmək, türk mədəniyyətinin zənginliklərini təbliğ etmək, iqtisadi inkişaf sahəsində qarşılıqlı əməkdaşlığı genişləndirən tədbirlər görmək, türk dövlət və topluluqlarının ümumi problemlərinin birlikdə həlli yollarını araşdırmaq olmusdur.

Azərbaycan prezidenti İlham Əliyev bu qurultaydakı çıxışında aşağıdakı məsələlərə diqqət yetirilməsini vacib saydı:

1.Türk diasporalarının gücləndirilməsi;
2. erməni lobbisinə qarsı mübarizənin gücləndirilməsi;
3. "Dağlıq Qarabağ problemi"nin ədalətli həlli məsələsinin daha da qabardılması;
4. BTC-nin Türkiyə və Azərbaycanın enerji təhlükəsizliyini təmin etməsi;
5. ümumtürk tarixinin yazılması.

Türk xalqlarının inteqrasiyasında əsas məsələlərdən biri də öz dövlətçiliklərinə malik olmayan türk topluluqlarınında çoxtərəfli əməkdaşlıqda fəal iştiraklarına müvəffəq olunmasından ibarətdir və bu sahədə səmərəli işlər görülür.